## Naxçıvan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi

# Bəhruz Kəngərli



**Qədim və zəngin mədəniyyətə malik olan Naxçıvan təkcə Azərbaycanın deyil, Yaxın Şərqin mədəni inkişafında mühüm rol oynamışdır.**

**Naxçıvan Muxtar Respublikası nadir tarixi və bədii memarlıq abidələri ilə zəngindir. Bu abidələr xalqın mədəniyyətinin ən qədim qaynaqlarını bu günümüzədək gətirib çıxartmışdır.**

Naxçıvan şəhərindəki Yusif Hüseyn oğlunun türbəsi (1162), Mömünə Xatun məqbərəsi (1186), İmamzadə məscidi və məqbərə kompleksi (XVII əsr), qədim Qala divarları (X-XIV əsrlər), Xan evi (XIX əsr), Ordubad rayonundakı Qeysəriyyə kompleksi (XVII əsr), Cümə məscidi (XVIII əsr), Eyvaz türbəsi (XVIII əsr), Mədrəsə (XVIII əsr), Aza körpüsü (1826-cı il), Şərur rayonundakı Govur qala (e.ə. II-I minillik), Oğlanqala (e.ə. II-I minillik), Həmzəli kəndi yaxınlığındakı Aqbantəpə (e.ə. VI-V əsrlər), Qoşa Minarə (XIV əsr), Babək rayonundakı Daşqala mağarası (Sirab kəndi, e.ə. V əsr), Çalxanqala (Payız kəndi, IX əsr), Köhnə hamam və İmamzadə (Nehrəm, XVIII əsr), Culfa rayonundakı Gülüstan türbəsi (XII əsr), Əlincə qalası (VI-VII əsrlər), Nəiminin məqbərəsi (XIV əsr), Əshabül-Kəhf (e.ə. VII əsr), Ərəfsə körpüsü (XV əsr), Şahbuz rayonundakı eramızdan əvvəlki dövrə aid edilən Külüs qalası, Fərhad evi (orta əsr), Şapur qalası (XVII əsr) və başqa abidələr yüksək memarlıq nümunəsi kimi diqqəti cəlb edə bilər.

Müxtəlif dövrlərdə xarici işğalçılara qarşı mətanətlə sinə gərən, əsrlər boyu davam edən dağıntı və çətinliklərdən adlayan Naxçıvan torpağı memarlıq abidələri, alim, şair və ədibləri, muzeylərin bəzəyinə çevrilmiş sənət inciləri yaradan sənətkar övladları ilə də tanınır.

Hələ eramızdan əvvəl İran, Hindistan, Orta Asiya, Çin və Avropa ölkələrinə gedən ticarət yolları Naxçıvan ərazisindən keçirdi. Bu və digər amillər Naxçıvanda incəsənətin müxtəlif növlərinin qarşılıqlı əlaqədə inkişaf etməsinə, bir-birindən bəhrələnərək tamamlanmasına səbəb olmuşdur.

Tarixi hadisələrin şahidi olmuş Naxçıvanın təsviri sənəti fərdi üslub və metodları ilə seçilmişdir. Bənzərsiz bədii xüsusiyyətləri qabarıq şəkildə özündə əks etdirən bəzək və kompozisiya qurumu, mövzu əlvanlığı ilə fərqlənən zəngin sənət nümunələri xalqın inam və inancları, hiss və duyğusu, həyata baxışı ilə səsləşir. Sənət incilərinin davamlılığına və zahiri gözəlliyinə diqqət yetirən Naxçıvan sənətkarları zaman-zaman hər bir əsrdə milli adət-ənənəni, mənəvi dəyərləri yaşatmağa nail olmuşdur.

Əsasən Naxçıvan köklü, Naxçıvanda doğulmuş və Azərbaycanda professional rəngkarlığın əsasını qoymuş Bəhruz Kəngərli bədii irsi bu baxımdan maraq kəsb edir. Təsviri sənətimizdə Bəhruz Kəngərli yaradıcılığı XX əsr müasir realist rəssamlığının təməli hesab edilir.

O, Azərbaycanın ilk professional rəssamı, olduqca qısa yaradıcılıq fəaliyyəti ərzində maraqlı rəsm, portret və mənzərə əsərləri ilə incəsənətimizə qiymətli töhfələr verən sənətkar olmuşdur.

Naxçıvanın qədim Kəngərlilər nəslini təmsil edən istedadlı gənc Tiflis Rəssamlıq məktəbində peşəkar sənətin sirlərinə yiyələnmiş, 1914-cü ildə Naxçıvanda özünün fərdi rəssamlıq sərgisini nümayiş etdirmişdir. Çox qısa - 10 il davam edən yaradıcılıq fəaliyyəti ərzində o, yüzlərlə obrazlı portret və mənzərələr yaratmış, Naxçıvan teatrında səhnəyə qoyulan tamaşalara bədii tərtibat vermiş, şəhərin mədəni həyatında böyük iz qoymuşdur.

Kəngərlinin kiçik ölçüdə çəkilmiş portretlərinin əksəriyyəti sulu boya ilə icra olunmuşdur. Canlı müşahidələrin izi ilə fırçaya alınmış həmin rəsmlər sadə və sərbəst kompozisiyasına görə çox vaxt etüd səviyyəsindədir. Bunların daha çox hissəsi 1911-1913-cü illərdə sulu boya, karandaş, kömür və qara tuşla işlənmiş albomda toplanmışdır.

Onun yaradıcılığında aparıcı yer tutan portret əsərlərində müasirlərinin real və canlı obrazları əksini tapmışdır. Kəngərli portret janrının tələblərinə təhsil illərində xüsusi diqqətlə yanaşmış, insan surətini təhlil etmək vərdişlərinə xüsusi tələbkarlıqla yiyələnmişdir. Xatirə mahiyyətli portretlərdən fərqli olaraq, rəssam əsl yaradıcılıq ruhu ilə səciyyələnən, məzmunca rəngarəng uşaq və qadın portretləri silsiləsini fırçaya almışdır. Əksəriyyəti ideya məzmunu, ictimai və psixoloji vüsəti ilə nəzəri cəlb edir.

B. Kəngərli 1918-ci ildə ata-baba yurdlarından, ermənilər tərəfindən zaman-zaman işğal edilən Zəngəzur mahalından qaçıb Naxçıvana pənah gətirən məcburi köçkünlərin obrazını tam özündə əks etdirən silsilə əsərləri ilə o insanların yaşadıqları iztirabları aydın göstərə bilmişdir. Məlumdur ki, tarixdə mart qırğını kimi tanınan bu hadisələr zamanı 30 mindən çox azərbaycanlı erməni daşnakları və onların tərəfdarları tərəfindən qətlə yetirilmişlər. Bəhruz Kəngərli özünün portret əsərlərində müasirlərinin, xüsusilə əsrlər boyu "Böyük Ermənistan" xülyasından əl çəkə bilməyən erməni terroruna məruz qalmış zavallı uşaqların, qadınların, qocaların doğma yerlərindən-yurdlarından qaçqın düşmüş canlı surətlərini əks etdirmişdir. ("Qaçqın İmran çanta ilə", "Qaçqın", "Canfəda kəndindən qaçqın oğlan").

Lirik və ulvi duyğularla aşılanmış mənzərə əsərlərində rəssam Naxçıvanın gözəl təbiətini, əzəmətli dağlarının, bərəkətli çöllərinin füsunkar gözəlliyini, yerli memarlıq abidələrinin əzəmətini tərənnüm etmişdir. ("Minarəsi dağıdılmış məscid", "Naxçıvanda Nuhun türbəsi", "Eylavat kəndində dağıdılmış darvaza", "İmamzadə", "İlanlı dağ", "Ağrı dağı", "Qarlı dağlar", "Qızlar bulağı").

Hələ tələbə ikən (XX əsrin əvvəllərində Zaqafqaziyanın mədəni mərkəzi Tiflis şəhərində "İncəsənəti təşviq cəmiyyəti" nəzdində təşkil edilmiş rəssamlıq məktəbinin ilk azərbaycanlı məzunu olmuşdur.) 1914-cü ildə Naxçıvanda Bəhruzun ilk fərdi sərgisi təşkil olunmuşdur. Sərgi sənət həvəskarlarının rəğbətini qazana bilmişdir. Bu da təsadüfi deyildir ki, Naxçıvanda sonralar rəssam kimi tanınmış Hüseyn Əliyev, Adil Qazıyev, Əyyub Hüseynov, Bağır Maratlı Bəhruzu özlərinin ilk müəllimi sayır, yüksək qiymətləndirirdilər. Rəssamın vəfatından xeyli sonralar, Azərbaycan Dövlət İncəsənət muzeyinin təşəbbüsü ilə 1947-ci ildə Bakıda, 1957-ci ildə Moskvada Bəhruz Kəngərlinin fərdi yaradıcılıq sərgiləri keçirilmişdir.

Naxçıvan teatr sənətinin inkişafında da əhəmiyyətli rol oynamışdır. XIX əsrin ikinci yarısında görkəmli yazıçı Cəlil Məmmədquluzadənin və digər ziyalıların təşəbbüsü ilə "Müsəlman incəsənəti və dram cəmiyyəti" təşkil olunmuş, şəhərdə teatr sənətinin inkişafına təkan verilmişdir. 1917-ci ildə Naxçıvan "Xeyriyyə" məktəbinin tərkibindəki "El güzgüsü" adlı teatr cəmiyyəti tərəfindən tamaşaya qoyulmuş C.Məmmədquluzadənin "Ölülər" komediyasının səhnə tərtibatını, dekorasiyalarını, kostyumlarını B.Kəngərli işləmişdir. O, həmçinin M.F.Axundovun "Pəri Cadu", "Hacı Qara" komediyalarının səhnə tərtibatını vermişdir.

Bəhruz Kəngərlinin yaradıcılığı mövzu və janr cəhətdən geniş və əhatəli olmuşdur. O, portret və mənzərələrlə yanaşı bir sıra kompozisiyaların, o cümlədən natürmort və karikaturaların müəllifidir. Rəssamın sənətini izlədikcə onun əsərlərində impressionizm üslubuna yaxınlıq duyulur. Biz bunu onun bir sıra mənzərələrində aşkar görə bilərik. B.Kəngərli işıq-kölgə effektinə, rənglərin biri-birilə harmoniyasına, ahəngliliyinə məharətlə nail olmağa çalışırdı.

"Odlar yurdu" Azərbaycanın, xoş və əvəzsiz təbiəti daim rəssamları, şairləri, musiqiçiləri ilhama gətirmişdir. Klassik poeziyamızda olduğu kimi, rəssamlıqda da, xüsusilə miniatür sənətində təbiət motivləri mühüm əhəmiyyət kəsb etmişdir. Azərbaycan xalçasının, keramika və zərgərlik məmulatlarının bərli-bəzəkli nəbati naxışlarında, Şəki

Xan sarayının (VIII əsr) monumental divar rəsmlərində doğma təbiətin gözəlliyi, əlvan və cazibədar boyaları dönə-dönə tərənnüm olunmuşdur. Çox təbiidir ki, Usta Qəmbər Qarabaği, Mir Möhsün Nəvvab, Xurşidbanu Natəvan və başqa təbiət vurğunları olan sənətkarlar kimi həssas qəlbli Bəhruz Kəngərli də təbiətin gözəlliklərini vəsf etmişdir. Ancaq miniatür ənənələrinə əsaslanan dekorativ mənzərə nümunələrindən fərqli olaraq, Kəngərli realist mənzərələrilə təsviri sənətimizdə yeni mərhələ təşkil etdi.

Bəhruz Kəngərli Naxçıvan diyarının özünəməxsus koloritini, təkrarolunmaz təbiətini, isti və parlaq boyaların ahəngini sənətkarlıqla canlandırmışdır. Onun rəssam kimi malik olduğu güclü müşahidə qabiliyyəti zənginliyi ilə fərqlənən Naxçıvan arxitekturasını öz tablolarında böyük ustalıqla təsvir etməsinə şərait yaratmışdır. Realist üsluba sadiq qalan rəssam təbiətin, mühitin rəng və işıq münasibətlərini ifadə edərək bir sıra impressionist ruhlu mənzərələr çəkmişdir.

Rəssamın yaradıcılığı mövzu və janr cəhətdən geniş və əhatəli olmuşdur. O, portret və mənzərələrlə yanaşı bir sıra kompozisiyaların, o cümlədən "Elçilik", "Toy", "Naxçıvan çaparı" şəkillərinin, natürmort və karikaturaların müəllifidir.

"Bəhruz Kəngərlinin bədii irsi xalqımızın milli sərvətidir". Belə yüksək qiyməti onun yaradıcılığına dahi rəhbərimiz Heydər Əliyev vermişdir. Onun təşəbbüsü ilə 1993-cü ildə Naxçıvanda rəssamın xatirə muzeyi açılmışdır. Bəhruz Kəngərlinin əsərlərinin böyük və zəngin kolleksiyası Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sistemində fəaliyyət göstərən Azərbaycan Dövlət İncəsənət Muzeyində qorunub saxlanılır. Orada Bəhruz Kəngərli yaradıcılığına həsr olunmuş xüsusi zal ayrılmışdır.

**Unudulmaz rəssam "Mən gördüyüm bu qəribə aləmi rənglərlə təsvir edirəm. Ancaq yenə də o çəkdiyim şeyin eyni ola bilmir. Mən çalışıram elə rəsm çəkim ki, o həmin şeyin eyni ola bilsin" - deyərək yaradıcılığında ucalmaq arzusunda idi. Həssas qəlbə malik, poetik rəsm əsərləri ilə Bəhruz Kəngərli əsl milli ruhlu sənətkarlardandır. Olduqca çalışqan, təvazökar, sakit və mülayim təbiətli bu qabaqcıl ziyalı çox qısa, lakin çox mənalı ömrü ərzində fitri istedadı və yaradıcı əməyə sonsuz məhəbbəti sayəsində realist rəssam kimi formalaşıb, Azərbaycan rəngkarlıq məktəbi tarixində yeni səhifə açmağa nail olmuşdur.**

**● Ülkər VEYSƏLLİ,**
*Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dissertantı*

## Ədəbiyyat

1. Telman Ağaoğlu. Təsviri sənət zirvəsində. "Azərbaycan" qəzeti - 21 aprel 2009-cu il.
2. Mirzəzadə O. Naxçıvan rəssamlarının əsərləri. "Ədəbiyyat və incəsənət" qəzeti.
3. İbrahimov Ə. Naxçıvan rəssamları. "Ədəbiyyat və incəsənət" qəzeti - 5 noyabr 1982-ci il.
4. Bəhruz Kəngərli. Bakı. "Çaşıoğlu" - 2005.
5. Azərbaycan Sovet Ensiklopediyası. 7-ci cild. Bakı - 1983.

## Резюме

В данном статье речь идет о культурной наследии Нахчивана и выдающийся, первым получившим профессиональное художественное высшее образование художнике Бахруза Кенгерли. В материале описывается жизнь и творческий путь художника. Мы видим эго работы - историю эго работ.

## Summary

Bakhruz is considered Khangarli creative work XX foundation of the century modern realist the trade a painter in our descriptive art. He has been craftsman given valuable gifts to our art during activities of the first professional painter of Azerbaijan, quite short creative work with works of interesting drawing, portrait and panorama lyrical and poetical.

Life of the painter in the article and appeal has been to his drawings talk from creative activities.